## Azərbaycan Memarlıq və İnşaat Universiteti – 50

# "Tikdim ki, izim qala"

*Bu il Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) 50 illik yubileyi qeyd edilir. Yarım əsrdən çox bir tarixə malik olan bu universitet, yalnız Azərbaycanın inşaat mühəndisliyi sahəsində deyil, həm də memarlıq və urbanistika sahələrində təhsilverən aparıcı təhsil ocaqlarından biridir. AzMİU-nun İnşaat fakültəsi isə universitetin ən köklü və müasir təhsil müəssisələrindən biri olaraq ölkəmizin inşaat sektoruna peşəkar mühəndislər və akademiklər yetişdirməkdə mühüm rol oynayır.*

*Fakültə 1920-ci ildə Bakı Politexnik İnstitutunun tərkibində yaranıb və sonrakı illərdə müxtəlif təhsil ocaqlarının fakültəsi kimi fəaliyyət göstərib. 1975-ci ildə Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü və səyləri nəticəsində Azərbaycan Memarlıq və İnşaat Universiteti yaradılıb və həmin tarixdən etibarən müstəqil fakültə olaraq fəaliyyətini bu universitetin tərkibində davam etdirib. İlk vaxtlar zəruri biliklərə sahib kadr yetişdirmə missiyasını yerinə yetirən İnşaat fakültəsi bu gün Azərbaycanda inşaat mühəndisliyi üzrə ali təhsil sahəsinin inkişafında önəmli yer tutmaqdadır.*

*Bu müsahibədə AzMİU-nun İnşaat fakültəsinin dekanı Sahib Fərzəliyevlə fakültənin tarixi, inkişafı və gələcək planları haqqında geniş məlumat alacağıq. Həmçinin beynəlxalq əməkdaşlıq, xüsusilə İstanbul Texniki Universiteti ilə ikili diplom proqramı və BİM (Bina İnformasiya Modelləşdirməsi) texnologiyalarının tətbiqi kimi mövzulara da toxunacağıq.*

## *Sahib Fərzəliyev:* "İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı yenidənqurma və infrastruktur layihələrində iştirak edərək, tələbələrimiz həm təcrübə qazanır, həm də töhfə verirlər"



*- Sahib müəllim, AzMİU-nun 50 illik yubileyi ərəfəsində, universitetin inşaat mühəndisliyi sahəsindəki rolunu necə qiymətləndirirsiniz? Bu illər ərzində universitetin inkişafı və tədris sahəsində hansı mühüm mərhələlər baş verib?*

- Universitetimiz bu müddət ərzində yalnız Azərbaycanda deyil, regionda da mühüm təhsil müəssisəsinə çevrilib. Bu illər ərzində universitetimiz ciddi inkişaf yolunu keçib və tədris metodlarını müasir tələblərə uyğunlaşdırmaqla yanaşı, həm də beynəlxalq əməkdaşlıq sahəsində əhəmiyyətli addımlar atıb.

İnşaat mühəndisliyi sahəsində universitetin inkişafını nəzərdən keçirərkən, ilk növbədə, tədrisin keyfiyyətinin artırılması və elmi-tədqiqat sahəsində irəliləyişləri vurğulamaq istərdim. Universitetimizin İnşaat fakültəsi təhsil sistemini hər zaman aktual və qabaqcıl texnologiyalarla zənginləşdirərək tələbələrə müasir inşaat mühəndisliyinin bütün aspektlərini öyrədir. Həmçinin biz beynəlxalq əməkdaşlıqları da ön planda tutaraq tələbələrimizin dünya səviyyəli təhsil almalarını təmin edirik. Bu gün İnşaat fakültəmiz, həm nəzəri, həm də praktik biliklər verən bir təhsil ocağıdır.

2018-ci ildə İstanbul Texniki Universiteti ilə imzaladığımız ikili diplom proqramı bizim təhsil sahəsindəki beynəlxalq əlaqələrimizi möhkəmləndirdi və tələbələrimizə beynəlxalq təcrübə qazandırmaq imkanı yaratdı. Bundan əlavə, BİM (Bina İnformasiya Modelləşdirməsi) texnologiyalarının tədrisə daxil edilməsi və inşaat sahəsindəki yeni tendensiyaların izlənməsi ilə biz tələbələrimizi gələcəyin mühəndisləri olaraq hazırlamağa davam edirik.

*- Maraqlıdır, inşaat mühəndisliyi sahəsindəki ənənələr necə formalaşıb və universitetin bu ənənələrə töhfəsi nə olub?*

- İnşaat mühəndisliyi sahəsindəki ənənələr Azərbaycanın təhsil tarixində dərin köklərə malikdir. Bu ənənələr, ilk növbədə, ölkəmizin infrastrukturunun inkişafı və sənayenin gücləndirilməsi ilə sıx bağlıdır.



İnşaat mühəndisliyi üzrə təhsil Azərbaycanda ilk dəfə 1920-ci illərdə Bakı Politexnik İnstitutunun tərkibində başlanıb. AzMİU uzun illər ərzində bu ənənələri inkişaf etdirərək müasir inşaat mühəndisliyi sahəsinə uyğun yeni təhsil proqramları və tədris metodları təqdim edib. Universitetimizin bu ənənələrə qatqısı, xüsusilə onun inşaat mühəndisliyi sahəsindəki yüksək tədris keyfiyyətində və elmi-tədqiqat fəaliyyətlərində özünü göstərir. İndi bu elm ocağı Azərbaycanda inşaat mühəndisliyi təhsilinin əsas mərkəzinə çevrilib və bu sahədə yeni biliklər və bacarıqların əldə edilməsi üçün tələbələrə yüksək səviyyəli tədris, praktiki imkanlar təqdim edir.

*- Fakültədə hansı ixtisaslar var və tələbələrə hansı yeni imkanlar, perspektivlər təqdim olunur?*

- İnşaat fakültəsinin tədris etdiyi üç əsas ixtisas - "İnşaat mühəndisliyi", "Materiallar mühəndisliyi" və "Sənaye mühəndisliyi" bu günün tələblərinə uyğun olaraq geniş imkanlar və perspektivlər təqdim edir.

İnşaat mühəndisliyi sahəsində tələbələrə ən müasir tikinti texnologiyaları, layihə idarəçiliyi, inşaat proseslərinin optimallaşdırılması və risklərin idarə olunması kimi mühüm biliklər öyrədilir. Beynəlxalq təcrübəni nəzərə alaraq, biz BİM texnologiyalarını tədris proqramımıza daxil etmişik. Bu texnologiya dünya miqyasında inşaat sahəsində artıq əsas standartlardan birinə çevrilib və tələbələrimiz həmin sahədə qabaqcıl biliklər əldə edirlər.

"Materiallar mühəndisliyi" ixtisasında isə tələbələrə yeni materialların istehsalı, keyfiyyətə nəzarət və innovativ materialların tətbiqi üzrə dərslər keçirilir. Bu sahədə təhsil proqramını müasir tələblərə uyğunlaşdırmaq üçün biz müxtəlif yerli və beynəlxalq əməkdaşlıqlara önəm veririk. Məsələn, deyə bilərəm ki, inşaat materialları üzrə ölkənin aparıcı şirkətlərinin universitetimizdə laboratoriyaları mövcuddur. Şirkətlər bizim alimlərimizdən, biz isə tələbələrimiz üçün onların maddi-texniki imkanlarından faydalanırıq.

"Sənaye mühəndisliyi" ixtisası isə müəssisələrin və istehsal proseslərinin optimallaşdırılmasına yönəlib. Bu sahədə tələbələrə istehsalın təşkili, resursların səmərəli idarəedilməsi, logistika və keyfiyyətə nəzarət kimi mövzularda dərslər tədris olunur. Sənaye mühəndisliyi sahəsində beynəlxalq təcrübə, xüsusən də Türkiyə və Avropa ölkələrindəki təcrübələr bizə yeni yanaşmalar tətbiq etməyə kömək edir.

Tələbələrimiz Azərbaycanda tanınmış inşaat və sənaye şirkətlərində təcrübə keçərək, təhsil aldıqları sahədə tətbiqi biliklər əldə edirlər.

*- Məlumdur ki, Türkiyə inşaat sahəsində böyük elmi-praktik təcrübəyə sahibdir. Siz İstanbul Texniki Universiteti ilə əməkdaşlıq haqqında danışdınız. Bu əməkdaşlıq proqramının tələbələrə necə fayda verdiyini və beynəlxalq təcrübənin onlara qazandırdığı üstünlükləri necə qiymətləndirirsiniz?*

- İTU ilə imzaladığımız ikili diplom proqramı tələbələrimiz üçün böyük bir fürsət təqdim edir. Bu əməkdaşlıq çərçivəsində tələbələrimiz 2 il AzMİU-da, 2 il isə İTU-da təhsil alaraq, hər iki universitetin diplomunu əldə edirlər. Bu proqramın əsas üstünlüyü tələbələrə beynəlxalq təcrübə qazandırmaqla yanaşı, həm də iki ölkənin və iki universitetə ən müasir tədris metodları ilə tanış olmaq imkanı verməsidir.

Proqramdan indiyə qədər 20-dən çox tələbə yararlanıb və onların çoxu artıq Azərbaycanın və beynəlxalq bazarın qabaqcıl inşaat şirkətlərində peşəkar fəaliyyətə başlayıb.

Qeyd edim ki, tələbələrimiz yalnız iki universitetin diplomunu deyil, həm də beynəlxalq əmək bazarında daha rəqabətədavamlı olmaq üçün lazımlı bacarıqları əldə edirlər. Bu əməkdaşlığın tədrisə təsiri də olduqca böyükdür. Fakültəmizdəki tədris proqramı tamamilə İTU-nun İnşaat fakültəsindəki tədris proqramı ilə eyniləşdirilib. Bundan əlavə, həm AzMİU-da, həm də İTU-da istifadə olunan maddi-texniki baza, laboratoriyalar və tədris resursları arasında tam uyğunluq vardır.

*- Daha əvvəl tələbələrə praktik vərdişlərin aşılanması məsələsinə toxundunuz. Bu təcrübələrin onların peşəkar inkişafına təsiri necədir?*

- İstehsalat və elmi-tədqiqat müəssisələri ilə sıx əlaqələr quraraq tələbələrimizin peşəkar inkişafını dəstəkləyirik. Biz tələbələrimizin real təcrübə qazanmasını təmin etmək məqsədilə onlara geniş imkanlar təqdim edirik. Xüsusilə tələbələrimizin təcrübə keçmək imkanı yalnız Bakı ilə məhdudlaşmır, həm də Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə, Qarabağ bölgəsinə yönəlir.

Azərbaycanda inşaat sahəsindəki tanınmış 100-dən çox şirkətlərlə sıx əməkdaşlıq edirik. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı yenidənqurma və infrastruktur layihələrində iştirak edərək, tələbələrimiz həm təcrübə qazanır, həm də ölkəmizin qürurverici inkişafına birbaşa töhfə verirlər. Bu, tələbələrimiz üçün yalnız peşəkar bacarıqlarını inkişaf etdirmək deyil, Qarabağda qurulan yeni gələcəyin bir hissəsi olmaq, bu tarixi dönüşün şahidi olmaq anlamına gəlir.

Bundan əlavə, biz istehsalatdan mütəxəssisləri də tədris prosesinə cəlb edirik. Onlar tələbələrə inşaat sahəsindəki ən son yenilikləri, praktiki məsələləri və sənayenin tələblərini öyrədirlər.

*- Tələbələrinizin məşğulluq imkanları haqqında nə deyə bilərsiniz?*

- Bizim tələbələr üçün geniş və perspektivli karyera imkanlarımız mövcuddur. Sevindirici haldır ki, məzunlarımızın əksəriyyəti təhsil aldıqları sahələr üzrə işlə təmin olunurlar. Dövlət Məşğulluq İdarəsinin ixtisaslar üzrə statistik göstəricilərinə diqqət yetirsək, görərik ki, inşaat mühəndisləri bütün peşə və ixtisasların içində ən birincisidir. Hazırki statistikaya görə, bu sahəni bitirən məzunların 73%-i öz sahəsində işlə təmin olunub. Universitetin nəzdində fəaliyyət göstərən Təcrübə və Karyera Mərkəzi də tələbə və məzunların məşğulluğunu dəstəkləyir, onların yerli və beynəlxalq nüfuzlu qurumlarda təcrübə keçmələrini və işlə təmin olunmalarını təşkil edir. Mərkəz tərəfindən yaradılmış "Məzun məlumat bazası" şirkətlərin kadr potensialına olan tələbatını tənzimləyə bilir.

Məzunlarımızın beynəlxalq arenada məşğulluq imkanlarının artırılması istiqamətində də uğurlarımız vardır. Belə ki, 2024-cu ildə "İnşaat mühəndisliyi" ixtisasını Avropa Ali Təhsildə Keyfiyyət Təminatı Assosiasiyasının üzvü Müstəqil Akkreditasiya və Reytinq Agentliyi (IAAR) vasitəsilə Beynəlxalq Akkreditasiyadan keçirmişik. Bu, o deməkdir ki, bizim məzunların diplomları dünyada tanınır və onların beynəlxalq arenadada da inşaat sahəsində öz karyera imkanlarını genişləndirmək imkanı olacaq.

**Nicat ABDULLAYEV**